Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 199 (7053) ŞƏNBƏ, 12 sentyabr 2015-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana işgüzar səfəri

## Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin görüşü



Sentyabrın 11-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə görüşü olub.

**Prezident Nursultan NAZARBAYEV** dedi:

- Hörmətli İlham Heydər oğlu, Sizi Astanada salamlayıram. Sizin səfəriniz bizim üçün həmişə xoşdur. Xalqlarımız arasında bütün istiqamətlər üzrə yaxınlıq var. Bu gün biz qaynaqlar barədə danışdıq. Bundan başqa, ölkələrimiz arasında heç vaxt həll edilməmiş heç bir problem olmayıb - istər sovet dövründə, istərsə də müstəqillik illərində. Dostluq hissi, bir-birimizə etimad, bir-birimizin qayğısına qalmaq hissləri olub, Sizinlə bərabər sevinmişik, Sizinlə bərabər kədərlənmişik. Buna görə də düşünürəm ki, Sizin hər bir səfəriniz, bizim hər görüşümüz ölkələrimiz arasında qarşılıqlı münasibətlərdə yeni səhifədir.

İndi çətin dövrdür. Dünyada böhran gedir, bizim ixrac mallarının qiyməti azalır. Qiymətlər ölkələrimiz arasında ticarətə də, əmtəə dövriyyəsinə də mütləq mənada təsir göstərir. Lakin bunu dəf etmək və ümumi təmas nöqtələri tapmaq lazımdır.

Siz Türkdilli Ölkələrin Sammitində iştirak etməyə gəlmisiniz. Bu gün lütfkarlıq göstərərək bizim ciddi tədbirlərdə iştirak etdiniz. Biz öz tariximizə, öz qaynaqlarımıza nəzər saldıq. Bu zalda əyləşən bütün qazaxıstanlılar üçün qardaş Azərbaycan xalqının rəhbərini burada görmək çox xoş idi.

Mən sizin səfərinizi alqışlayıram.

* * *

**Prezident İlham ƏLİYEV** dedi:

- Çox sağ olun, hörmətli Nursultan Abişeviç. Dəvət üçün sağ olun. Mən qardaş Qazaxıstana sevinc hissi ilə yenidən səfər edirəm.

Sizin qeyd etdiyiniz kimi, bu gün səhər biz Qazax xanlığının yubileyinə həsr edilmiş təntənəli tədbirdə birlikdə olduq. Sizin çıxışınız, Qazaxıstanın tarixi keçmişinin və bugünkü inkişafının təhlili bir daha göstərdi ki, müstəqil Qazaxıstanın uğurlarının çox dərin milli, tarixi kökləri var.

Sizin qeyd etdiyiniz kimi, xalqlarımızı həmişə dostluq, əməkdaşlıq, qardaşlıq telləri bağlayıb. Biz bir-birimizə həmişə böyük hörmət bəsləmişik, bir-birimizi dəstəkləmişik. İkitərəfli münasibətlərin dinamik inkişafı bu gün də davam edir. Bizim aramızda bütün istiqamətlər üzrə tam qarşılıqlı anlaşma var. Prezidentlər səviyyəsində biz çox tez-tez görüşürük - həm Qazaxıstanda, həm Azərbaycanda, həm də başqa ölkələrdə keçirilən tədbirlər çərçivəsində. Həmişə də ikitərəfli və regional məsələləri açıq müzakirə edirik. Əlbəttə, bu gün dünya iqtisadiyyatında yaranmış vəziyyət bizi narahat edir və düşünürəm ki, bu gün biz bu mövzunu da müzakirə edəcəyik. Lakin qeyd etməliyəm ki, bizim hesablamalara görə, Qazaxıstan bu vəziyyətdən minimal itki ilə çıxır. Hərçənd, ölkələrimiz neftin istehsalçıları və ixracatçıları kimi təbii ki, bu sınağa məruz qalıblar. Lakin bu da bizim səmərəliliyimiz üçün bir test olacaq. Düşünürəm ki, sizin qeyd etdiyiniz kimi, biz bunun öhdəsindən ləyaqətlə gələcək və uğurla irəli gedəcəyik.

* * *

Söhbət zamanı prezidentlər ortaq tarixi, mədəniyyəti, milli maraqları olan ölkələrimiz arasında əlaqələrin perspektivlərinin daha da geniş olduğunu qeyd etdilər və mövcud potensialdan səmərəli istifadə edilməsində belə tədbirlərin xüsusi önəm daşıdığını vurğuladılar.

Dövlət başçıları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi apardılar.

Görüşdə bir sıra regional və beynəlxalq məsələlər müzakirə olundu.

***AZƏRTAC***